**Tehran Uhiversitetində dram rejissorluğu ixtisasına yiyələnməklə qısametrajlı filmlər, seriallar üçün ssenarilər yazmış Əsgər Fərhadinin (1972) "Tozanqda rəqs" (2003) (ssenari müəllifi Əlirza Bazrafşanyan, Əsgər Fərhadi, Məhəmmədrza Fazili 2003) filmində azəri türkü reyhanə adlı qızla evlənən Nəzərin dayısının zamanətlə toy üçün bankdan kredit götürsə də valideynlərinin təhriki ilə ailəsindən ayrılması izlənilir.**



# Kinonun Əsgər Fərhadi fenomeni

Simin, boşanma" (2011) filmi isə on dörd il evli olub, Tərmeh adlı on bir yaşlı qızları olan otabab həyat sürən Tehran sakinləri Naderlə Siminin boşanmaq fikrinə düşmələri filmin əsas hadisəsini yaradır.

Müasir və mühavizəkar təfəkkür tərzini qarşılaşdıran bu filmdə qızını qapalı mühitdə böyütmək istəməyən Siminin ölkəni tərk etmək istəyinə Altseyqeymera - yaddaşın, nitqin fəaliyyətini məhdudlaşdıran xəstəliyindən əziyyət çəkən atasını qoyub getmək istəməməsi boşanmağın qarşısını kəsən amilə çevrilir. Siminin müraciət etdiyi məhkəmənin Naderin tərəfini tutması, ailəni dağıtmaq istəməməsi hadisələri qızışdırır. Məhkəmənin ərinin tərəfini saxladığını görən Siminin anasının yanına köçməsi Naderin xəstə atasına baxmaq üçün əri işsiz olduğundan maddi ehtiyacı olan Raziyə adlı qadını evə gətirməsi yeni personajları struktura qoşur.

Raziyənin xəstə naməhrəm qocanın islatdığı alt tumanını dəyişib-dəyişməmək, yad kişiyə toxunub-toxunmamaq məsələsini "olum, ya ölüm" kontekstində əzabla götür-qoy etməsi dini qadaşaların şərtiliyini səciyyələndirir. Həkimə gedərkən Raziyənin əlacsız qalıb çarpayıya bağladığı xəstə qocanı ölüm ayağında görən Naderin günahkar sayıb evdən bayıra atdığı, pillələrdən yıxılaraq əzilən, ertəsi gün dörd aylıq uşağının tələf olması dramatizmi qızışdırır.

Nadirin qadının hamilə olduğunu bilib-bilməməsinin ölüm hadisəsinin araşdırılması kimi bütokratik hüquqi müstəviyə gətirilməsi, balaca Termehin atasının xeyrinə yalan ifadə verməyə məcbur qalması və nəhayət xaricə qaçmaq istəyi üzə çıxan Sminin əsas günahkar kimi mühitin mənzərəsini və münasibətlər sistemini yeni mərhələyə çıxarır. Balaca Termehin anası ilə xaricə getmək və yaxud atası ilə vətəndə yaşamaq seşimi arasında qalması finalı ikiləşdirməklə çıxış yolunu gələcək nəslin öz üzərinə qoyur.



**19 fefral 2011-ci ildə əlli səkkiz ölkənin üç yüz səksən filminin iştirak etdiyi Berlin festivalıda yaxşı rejissor işinə görə "Nader və Smin, boşanma" filminin də "Qızıl ayı" mükafatı qazanması Əsgər Fərhadinin ekran yaradıcılığına dünyəvi maraq qazandırdı.**

● **Aydın DADAŞOV,**
***ADMİU-nun Kinoşünaslıq kafedrasının müdiri***